Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2004-cü il 6 noyabr tarixli 176 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna**
**C Ə R İ M Ə L Ə R**

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu sənəd "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanununa və "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 294 nömrəli Fərmanına uyğun olaraq hazırlanmışdır.

1.2. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, heyvanlar aləmindən istifadə ödənişlidir.

Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni balıq ovuna cərimələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli qərarı ilə müəyyən edilmişdir.

## II. HEYVANLAR ALƏMİNDƏN İSTİFADƏYƏ GÖRƏ ÖDƏMƏLƏRİN NÖVLƏRİ VƏ DƏRƏCƏLƏRİ

2.1. Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri və dərəcələri aşağıdakı kimi müəyyən edilir:

| Sira №-si | **Vəhşi heyvanların adı** | **Bir baş vəhşi heyvanın vurulması (tutulması) üçünödəmə (şərti maliyyəvahidinin misli ilə)** |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1** | **Dırnaqlılar dəstəsi** | |
| | ceyran, maral, muflon, bezoar keçi, qarapaça | 50 |
| | Dağıstan turu | 22,5 |
| | çöl donuzu | 15 |
| | cüyür | 15 |
| 2 | **Yırtıcılar dəstəsi** | |
| | bəbir | 500 |
| | vaşaq, manul pişiyi | 500 |
| | qonur ayı | 22,5 |
| | çölpişiyi | 30 |
| | qamış və meşə pişikləri | 20 |
| | meşə və daşlıq dələləri | 3,6 |
| | gəlincik, porsuq | 5 |
| | yenot | 1,5 |
| | tülkü | 5 |

| | | |
|---|---|---|
| | canavar | 5 |
| | çaqqal | 3,6 |
| 3 | **Gəmiricilər dəstəsi** | |
| | oxlu kirpi | 5 |
| | bataqlıq qunduzu (nutriya) | 1,5 |
| | sincab | 5 |
| 4 | **Dovşankimilər dəstəsi** | 1 |
| 5 | **Həşəratyeyənlər və yarasalar dəstəsi** | 1 |
| 6 | **Toyuqkimilər dəstəsi** | |
| | Qafqaz və Xəzər uları | 10 |
| | Qafqaz tetrası, turac | 10 |
| | Zaqafqaziya qırqovulu | 2,3 |
| | talış qırqovulu | 10 |
| | boz kəklik | 1,15 |
| | gözəl kəklik | 1,15 |
| | bildirçin | 0,14 |
| 7 | **Göyərçinkimilər** dəstəsi | |
| | Qaraqanın bağrıqara | 10 |
| | alabaxta | 0,28 |
| | digər növlər | 0,14 |
| 8 | **Durnakimilər dəstəsi** | |
| | sultan toyuğu | 10 |
| | çivdimdik | 10 |
| | qaşqaldaq, qamışlıq fərəsi, porzan, xırda porzan, cırtdan porzan, su fərəsi | 0,28 |
| | ağ duma | 20 |
| | boz durna, qəşəng duma | 15 |
| | dovdaq, qəşəng dovdaq | 20 |
| | bəzgək | 10 |
| 9 | **Çovdarçıkimilər** dəstəsi | |
| | qırıldayan cüllüt | 10 |
| | ağquyruq çökükburun | 10 |
| | tənbəl bekas | 10 |
| | kiçik kronşnep | 10 |
| | çöl haçaquyruq cüllütü | 10 |
| | cüllütkimilərin digər növləri | 0,28 |
| 10 | **Qağayılar fəsiləsi** | 1 |
| 11 | **Qağayıkimilər dəstəsi** | 1 |
| 12 | **İyrəncəkimilər dəstəsi** | 0,3 |
| 13 | **Qazkimilər dəstəsi** | |
| | qu quşları, qırmızıdöş qaz, ağqaş qaz | 10 |
| | qazlar (boz və ağalın) | 2,3 |

| | | |
|---|---|---|
| | mərmər cüro, ağgöz və göydimdik ördək | 10 |
| | cürələr | 0,28 |
| | digər ördək növləri | 0,90 |
| 14 | **Kürəkayaqlıkimilər dəstəsi** | |
| | qıtanlar | 10 |
| | qarabataqlar | 0,2 |
| 15 | **Qızılqazkimilər** dəstəsi | |
| | qızilqaz | 10 |
| 16 | **Leyləkkimilər dəstəsi** | |
| | ərsindimdik, qara leylək | 10 |
| | ağ leylək | 5 |
| | qarıldaq, dan quşları, qaranaz, Misir vağı, müqəddəs ibis və vağlann digər növləri | 5 |
| 17 | **Yırtıcilar dəstəsi** | |
| | Qafqaz şahini, ütəlgi, Aralıq dənizi qızılquşu, çay qaraquşu,ağquyruq dəniz qartalı, tetraçalan, Türküstan tüvüyü, çöl qartalı, məzar qartalı, berkut, toğlugötürən, ilanyeyən, böyük qartalça, qara kərkəs. çöl belibağlısı, çöl muymulu | 200 |
| | arıyeyən, qırmızı çalağan, qara çalağan, uzunquyruq dənizqartalı, bildirçinçalan, tülküayaq sar, çöl san, adi sar, çırtdan qartal, kiçik qartalça, leşyeyən, ağbaş kərkəs, tarla belibağhsı, çəmənlik belibağlısı, qamışlıq və ya bataqlıq belibağlısı, adi muymul, derbnik, kərkincək, qaragöz | 50 |
| 18 | **Bayquşkimilər dəstəsi** | |
| | iri yapalaq, adi yapalaq, bataqlıq bayquşu, qulaqlı bayquş, dam bayquşu, meşə bayquşcuğu | 1 |
| 19 | **Quququşukimilər** dəstəsi | 1 |
| 20 | **Keçisağankimilər dəstəsi** | 1 |
| 21 | **Uzunqanadhlar dəstəsi** | 0,5 |
| 22 | **Göycəqarğakimilər dəstəsi** | 0,3 |
| 23 | **Ağacdələnkimilər dəstəsi** | 0,1 |
| 24 | **Sərçəkimilər dəstəsi** | |
| | ağboğaz bülbül, səhra qarquşu, hirkan anquşu | 10 |
| | sərçəkimilərin digər növləri | 0,2 |
| 25 | **İlanlar** | 5 |
| | gürzə | 10 |

| | | |
|---|---|---|
| 26 | **Kərtənkələlər** | 0,5 |
| 27 | **Tısbağalar** | 0,5 |
| | Aralıq dənizi tısbağası | 1 |
| 28 | **Qurbağalar, tritonlar** | 0,2 |
| 29 | **Tibb zəlisi** | 0,05 |
| 30 | **Siyahıda adı göstərilməyən bütün fauna növləri üçün** | 1 |

2.2. Ölçüsündən, çəkisindən və yaşından asılı olmayaraq, hər bir fərd vəhşi heyvan növünün vurulması və ya tutulması cədvəldə müəyyən olunmuş dəyərə əsasən ödənilir.

2.3. Cədvəldə göstərilən vəhşi heyvan növlərinin yumurtalarını yığmağa görə hər ədəd yumurtanın dəyəri bir baş vəhşi heyvanın vurulması və ya tutulması üçün müəyyən edilmiş ödəmə dəyərinin 50 faizi miqdarında hesablanır.

2.4. Beşdəfəlik, ondəfəlik və mövsümi ov üzrə ödəmə cədvəldə müəyyən olunmuş ödəmə dəyərinə müvafiq olaraq 20, 25 və 30 faiz az hesablanır (Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na düşmüş nadir vəhşi heyvan növləri (yarımnövləri) istisna olmaqla).

2.5. Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na düşmüş və digər nadir vəhşi heyvan növlərinin (yarımnövlərinin) tutulmasına və ya ovlanmasına yalnız elmi və dövlət reyestrinə daxil edilmiş zooloji kolleksiyaların zənginləşdirilməsi məqsədi ilə icazə verilə bilər.

2.6 Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən vəhşi heyvanların (Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na düşmüş vəhşi heyvan növləri istisna olmaqla) ovlanmasının (tutulmasının) qiyməti və ov qənimətinin dəyəri aşağıdakı kimi müəyyən edilir.

| **Sıra № - si** | **Vəhşi heyvanların adı** | **Bir baş vəhşi heyvaninvurulması (tutulması) üçün ödəmə (şərti maliyyə vahidinin misli ilə)** | **Ovlanmış bir baş ov heyvanı üçün ov qənimətinin qiyməti (şərti maliyyə vahidinin misli ilə)** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1 | Dağıstan turu | 22,5 | 730 |
| 2 | Qonur ayı | 22,5 | 730 |
| 3 | Çöl donuzu | 15 | 200 |
| 4 | Tülkü | 36 | __________ |
| 5 | Çaqqal | 36 | __________ |
| 6 | Boz dovşan | 22,5 | __________ |
| 7 | Qazlar | 4,5 | __________ |
| 8 | Ördəklərin bütün növləri və qaşqaldaq | 0,91 | |

| | | | |
|---|---|---|---|
| 9 | Kəklik | 4,5 | _________ |
| 10 | Meşə cüllütü, böyük və ortaboy kronşnep | 0,91 | |
| 11 | Zaqafqaziya qırqovulu | 4,5 | _________ |
| 12 | Göyərçinkimilər dəstəsi | 0,45 | _________ |
| 13 | Sərçəkimilər dəstəsi | 0,45 | — |

## III. QEYRİ-QANUNİ VƏHŞİ HEYVAN OVU ÜÇÜN TƏBİƏTƏ DƏYMİŞ ZİYANA GÖRƏ TƏTBİQ EDİLƏN CƏRİMƏLƏR

3.1. Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbi-əti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş vəhşi heyvan növlərinin qeyri-qanuni ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr aşağıdakı qaydada müəyyən edilir:

| **Sıra № -si** | Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na düşmüş nadir heyvan növlərinin (yarımnövlərinin) adi | Yaşından, ölçüsündən və çəkisindən asılı olmayaraq bir baş vəhşi heyvan üçün ziyanın miqdarı (şərti maliyyə vahidinin misli ilə) |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1** | **Məməlilər** | |
| | adi uzunqanad | 100 |
| | cənub nalburunu | 100 |
| | enliqulaq bükükdodaq | 100 |
| | zolaqlı kaftar | 1000 |
| | çay samuru | 200 |
| | sarıqlı safsar | 100 |
| | manul pişiyi | 500 |
| | çöl pişiyi | 200 |
| | vaşaq | 2000 |
| | bəbir | 3000 |
| | turan pələngi | 4000 |
| | ceyran | 500 |
| | köpgər (qarapaça) | 500 |
| | bezoar keçisi | 500 |
| | mulfon | 500 |
| **2** | **Quşlar** | |
| | qıvrımlələk qutan | 500 |
| | çəhrayı qutan | 500 |
| | ərsindimdik | 500 |
| | qara leylək | 500 |
| | qızıl qaz | 500 |
| | kiçik qu | 500 |

| | | |
|---|---|---|
| | fısıldayan qu | 500 |
| | ağqaş qaz | 500 |
| | qırmızıdöş qaz | 500 |
| | mərmər cürə | 300 |
| | ağgöz öldək | 300 |
| | göydimdik ördək | 300 |
| | çay qaraquşu | 300 |
| | ağquyruq dəniz qartalı | 300 |
| | iri qırğı (tetraçalan) | 300 |
| | Türküstan tuviyi (Orta Asiya tuviyi) | 300 |
| | çöl qartalı | 300 |
| | iri qartalça | 300 |
| | məzar qartalı | 500 |
| | berkut | 500 |
| | Toğlugötürən | 500 |
| | qara kərkəs | 300 |
| | ilanyeyən | 300 |
| | çöl belibağlısı | 300 |
| | çöl muymulu | 300 |
| | utəlgi (baloban) | 700 |
| | Qafqaz şahini | 1000 |
| | Xəzər uları | 300 |
| | Qafqaz uları | 300 |
| | turac | 300 |
| | talış qırqovulu | 500 |
| | Qafqaz tetrası | 500 |
| | çivdimdik | 100 |
| | sultan toyuğu | 300 |
| | ağ duma | 500 |
| | dovdaq | 500 |
| | qəşəng dovdaq | 500 |
| | bəzgək | 300 |
| | qırıldayan cüllüt | 100 |
| | ağquyruq çökükburun | 100 |
| | tənbəl bekas | 100 |
| | kiçik kronşnep (əyridimdik) | 100 |
| | çöl haçaquyruq cüllütü | 100 |
| | qaraqarm bağrıqara | 300 |
| | hirkan anquşu | 100 |
| | səhra qarquşu | 100 |
| | ağboğaz bülbül | 100 |
| **3** | **Suda-quruda yaşayanlar** | |
| | adi quru qurbağası | 10 |

| | | |
|---|---|---|
| | Qafqaz xaçlıcası | 20 |
| | adi triton | 20 |
| | daraqlı triton | 20 |
| | Suriya sarımsaqiyliqurbağası | 30 |
| **4** | **Sürünənlər** | |
| | xarabalıq kələzi | 50 |
| | Kiçik Asiya gürzəsi | 75 |
| | eskulap ilanı | 75 |
| | qızılı mabuya | 50 |
| | girdəbaş yovşanlıq kərtənkələsi | 50 |
| | Zaqafqaziya təlxəsi | 60 |
| | zolaqlı çılpaqgöz kərtəngələ | 50 |
| | qarabaş rinxokalamus | 60 |
| | ox-ilan | 50 |
| | Aralıq dənizi tısbağası | 60 |
| **5** | **Həşəratlar** | |
| **6** | **Kəpənəkkimilər dəstəsi** | |
| | Şərqi Aleksanor yelkənciyi | 50 |
| | adi appolon | 50 |
| | Nordman appolonu | 50 |
| | talış məxməri kəpənəyi | 50 |
| | Komarov hafı | 50 |
| | kəlləşəkilli haf | 50 |
| | oleandr hafı | 50 |
| | iri tənək hafı | 50 |
| | talış bromeyası | 50 |
| | hilata | 50 |
| | avrorına sarıcası | 50 |
| | Alp sarıcası | 50 |
| | Qafqaz sarıcası | 50 |
| | kürd sarıcası | 50 |
| | Qafqaz zerintiyası | 50 |
| | şəfəqsaçan | 50 |
| | talış yangözcüklüyü | 50 |
| | tutqun ayıça | 50 |
| | tamara alacası | |
| | Aleksandra sedəflisi | 50 |
| | İoniya berqvuranı | 50 |
| | Alp satiri | 50 |
| | Romanov tomaresi | 50 |
| | xrizip | 50 |
| | Oxim qızılı kəpenəyi | 50 |
| | Eyfema | 50 |

| | | |
|---|---|---|
| **7** | **Böcəkkimilər dəstəsi** | |
| | üçpərli talış qaçağanı | 50 |
| | Qafqaz ilbizyeyən fıqırdam | 50 |
| | palıd diserkası | 50 |
| | qəşəng böcək | 50 |
| | Solomon qızılböcəyi | 50 |
| | Klit Reyter | 50 |
| | talış kökyeyəni | 50 |
| | Xəzər parandrası | 50 |
| | Alp rozaliyası | 50 |
| | Ferrat çapağanı | 50 |
| | Skovito uzunbığı | 50 |
| | tündqırmızı talış uzunbığı | 50 |
| **8** | **Zolaqlı arılar** | |
| | Dağıstan zolaqlı arısı | 50 |
| | Mlokoseviç zolaqlı arısı | 50 |
| | fars zolaqlı arısı | 50 |
| | Porçinski zolaqlı arısı | 50 |

3.2. Dövlət təbiət qoruqlarının ərazilərində və milli parkların xüsusi mühafizəsinin hüquqi rejimi tətbiq edilən zonalarında Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na düşmüş vəhşi heyvan növləri və onların yuvaları, mağaraları və s. yaşayış yerləri qanunsuz olaraq məhv və ya əldə edilərsə, təbiətə dəymiş ziyana görə cərimələr hər bir növ və yuva üçün vəhşi heyvan növü üzrə təyin olunmuş cədvələ əsasən üçqat ölçüdə hesablanır.

3.3. Dövlət ovçuluq təsərrüfatlarının, milli parkların (xüsusi mühafizəsinin hüquqi rejimi tətbiq edilən zonalarından başqa), dövlət təbiət yasaqlıqlarının və təbiət abidələrinin (təbii abidələrin) ərazilərində, həmçinin heyvanxanalarda və ixtisaslaşdırılmış pitomniklərdə (volyerlərdə) Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş vəhşi heyvan növləri qanunsuz olaraq məhv və ya əldə edilərsə, təbiətə dəymiş ziyana görə cərimələr hər bir vəhşi heyvan növü üçün təyin olunmuş cədvələ əsasən ikiqat ölçüdə hesablanır.

3.4. Yuvadan qanunsuz götürülmüş hər bir yumurtaya, həmçinin qeyri-qanuni əldə edilmiş və ya məhv edilmiş məməlilərin dişi fərdlərindəki embriona görə cərimələr isə vəhşi heyvan növü üçün təyin olunmuş cədvələ əsasən 50 faiz miqdarında hesablanır.

3.5. Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil olmayan heyvan növlərinin qeyri-qanuni ovu üçün təbiətə dəymiş ziyana görə cərimələr aşağıdakı kimi müəyyən edilir:

| **Sira №-si** | **Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na və Beynəlxalq** | **Yaşından, ölçüsündən və çəkisindən asılı olmayaraq bir baş vəhşi** |
|---|---|---|

| | Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na düşməmiş vəhşi heyvan növlərinin (yarımnövlərinin) adi | heyvan üçün ziyanın miqdarı (şərti maliyyə vahidinin misli ilə) |
|---|---|---|
| **1** | **2** | **3** |
| 1 | Qulaqlı kirpi | 3 |
| 2 | Boz dovşan | 10 |
| 3 | Adadovşanı | 10 |
| 4 | Sincab | 10 |
| 5 | Süleysin | 10 |
| 6 | Tirəndaz (oxlu kirpi) | 10 |
| 7 | Bataqlıq qunduzu (nutriya) | 20 |
| 8 | Tülkü | 10 |
| 9 | Canavar | 10 |
| 10 | Çaqqal | 10 |
| 11 | Gəlincik | 10 |
| 12 | Meşə və daşlıq dələləri | 50 |
| 13 | Porsuq | 15 |
| 14 | Qonur ayı | 400 |
| 15 | Qamış pişiyi | 50 |
| 16 | Meşə pişiyi | 70 |
| 17 | Çöl donuzu | 200 |
| 18 | Nəcib və xallı marallar | 300 |
| 19 | Cüyür | 200 |
| 20 | Dağıstan turu | 250 |
| 21 | Həşəratyeyənlərin və yarasaların digər növləri | 3 |
| 22 | Ağdöş və qaradöş qaqara | 10 |
| 23 | İyrəncəkimilərin bütün növləri | 3 |
| 24 | Böyük qarabataq | 10 |
| 25 | Böyük və kiçik danquşu | 10 |
| 26 | Qarıldaq | 10 |
| 27 | Misir vağı | 15 |
| 28 | Vağların digər növləri | 5 |
| 29 | Qaranaz | 10 |
| 30 | Ağ leylək | 20 |
| 31 | Haraycı qu quşu | 30 |
| 32 | Boz və ağalın qaz | 20 |
| 33 | Ördəklərin bütün növləri | 5 |
| 34 | Yırtıcı quşların bütün növləri | 5 |
| 35 | Zaqafqaziya qırqovulu | 20 |
| 36 | Kəklik | 10 |
| 37 | Bozkəklik | 10 |

| | | |
|---|---|---|
| 38 | Bildirçin | 3 |
| 39 | Qaşqaldaq | 5 |
| 40 | Sığırçınların digər növləri | 5 |
| 41 | Boz və qəşəng duma | 20 |
| 42 | Çobanaldadan | 10 |
| 43 | Çovdarçılar, haçaquyruq cüllütlər | 10 |
| 44 | Qağıyılar | 15 |
| 45 | Göyərçinlər | 5 |
| 46 | Ququ quşu | 3 |
| 47 | Keçisağan | 5 |
| 48 | Bayquşkimilərin bütün növləri | 5 |
| 49 | Uzunqanadlıların bütün növləri | 5 |
| 50 | Qaranquşların bütün növləri | 5 |
| 51 | Balıqçıllar | 5 |
| 52 | Qızılı və yaşıl qızlarquşu | 5 |
| 53 | Göycəqarğa | 3 |
| 54 | Şanapipik | 5 |
| 55 | Ağacdələnkimilərin bütün növləri | 10 |
| 56 | Sərçəkimilərin bütün növləri | 5 |
| 57 | Gürzə | 80 |
| 58 | İlanların digər növləri | 30 |
| 59 | Tısbağalar | 3 |
| 60 | Qurbağalar, kərtənkələlər | 2 |
| 61 | Tibb zəlisi | 0,5 |
| | **Qeyd:** Bu siyahıda adları göstərilməyən qalan bütün fauna növləri | 2 |
| | Suda üzən quşların kütləvi surətdə tutulması | 20 |
| | Ov quşlarının və faydalı quşlarınyuvalarından götürülmüş hər yumurtası üçün | 2 |

3.6. Vəhşi heyvanların növləri ov üçün qadağan edilmiş alətlər vasitəsi ilə və üsullarla ovlandıqda, bu sənədin 3.1-ci və 3.5-ci bəndlərinə əsasən hesablanan cərimələr 2 (iki) əmsalına vurulur.

3.7. Heyvanlar aləminin obyektlərindən istifadəyə görə ödəmələr və qeyri-qanuni vəhşi heyvan ovuna görə tətbiq edilən cərimələr müvafiq olaraq, Ətraf Mühitin Mühafizəsi üzrə Dövlət Fonduna və ya xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarına keçirilir.